Azərbaycan.-2025.- 17 iyul (№ 145).- S.12.

# Gəncədə Türkiyənin Demokratiya və Milli Birlik Günü qeyd edilib






**Türkiyə Respublikasının Gəncədəki Baş Konsulluğunun təşkilatçılığı ilə 15 İyul - Demokratiya və Milli Birlik Günü münasibətilə anım tədbiri keçirilib.**

Tədbirdə Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev, bələdiyyə sədrləri, idarə və müəssisə rəhbərləri, şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Öncə Vətən uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib, Türkiyə və Azərbaycanın Dövlət himnləri səsləndirilib.

Baş konsul Recep Öztop 15 İyul Demokratiya və Milli Birlik Gününün əhəmiyyətindən danışaraq qeyd edib ki, 2016-cı il iyulun 15-də Türkiyə tarixində ən ağır çevriliş cəhdi baş verdi: "Ancaq xalq Prezident Rəcəb Tayyib Ərdoğanın çağırışına səs verərək küçə və meydanlara axışdı, dövlətini, demokratiyanı və milli birliyini qorumaq üçün qətiyyət nümayiş etdirdi. Bu gün türk xalqı həmin hadisələr zamanı şəhid olmuş vətən övladlarını böyük minnətdarlıq və ehtiramla yad edir".

Gəncə ŞİH başçısının müavini Adil Tağıyev isə çıxışında bu sınaq günündə Azərbaycanın bir daha "Bir millət, iki dövlət" prinsipinə sadiq qaldığından danışıb: "Dövlət çevrilişinə cəhd zamanı Azərbaycan Türkiyənin yanında oldu. Hadisənin ilk anlarından Prezident İlham Əliyev Türkiyə dövlətinə olan dəstəyini açıq şəkildə ifadə etdi".

Tədbirin sonunda Demokratiya və Milli Birlik Gününə həsr olunmuş videoçarx nümayiş olundu.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***